UOT 323.28
DOI:10.30546/3006-0346.2024.5.83.015

# BEYNƏLXALQ TERRORİZM - GEOSİYASİ MARAQLARIN TOQQUŞMASINDAN YARANAN FENOMEN KİMİ

**İLKİN ƏHMƏDZADƏ**
*Bakı Dövlət Universitetinin*
*Beynəlxalq münasibətlər kafedrasının doktorantı*

*E-mail: diplomatd325@gmail.com*

XXI yüzilliyin əvvəllərində - 2001-ci il sentyabrın 11-də Nyu-Yorkda Dünya Ticarət Mərkəzi və Vaşinqtonda Pentaqona endirilən zərbələr, 2002-ci ildə və 2005-ci ildə Balidəki turizm mərkəzlərində, 2003-cü ildə İstanbulda sinaqoqda, 2004-cü ildə Parisdə, habelə HSBC Bank ("Eyç-es-bi-si", 2011-ci ildən bankların qlobal sisteminə daxildir) Baş Qərargahının yerləşdiyi Londonda və İngiltərə Konsulluğunda, 2005-ci ildə Madriddə və həmin ildə London metrosunda baş verən və intiharla nəticələnən terrorçuluq hadisələri, 2006-2007-ci illərin terror hadisələri, Moskva metrosu və mehmanxanalarında törədilən partlayışlardan sonra beynəlxalq terrorizm və terrorçular birdən-birə qlobal dünya nizamına təzyiq edən yeni hədə və təhdidlər kimi aktuallaşdı. Ancaq terror, terrorizm ideologiyası, motivasiyası, strategiyası və hərəkətləri zamana və məkana görə fərqli olsa da, tarixin bütün dövrlərində dövlətlər və cəmiyyətlər üçün real təhlükə olmuşdur və olaraq da qalır.

XXI əsrdə terrorizmlə bağlı baş vermiş mühüm dəyişiklik ondan ibarətdir ki, bu məsələ dövlətlərin daxili nizam-intizamı ilə bağlı məsələ olmaqdan çıxaraq birbaşa dövlətlərin xarici siyasət məsələsinə çevrilmişdir. Bu baxımdan dünya dövlətlərini regional və beynəlxalq səviyyələrdə ortaq qaydalara əsasən bir araya gətirən Birləşmiş Millətlər Təşkilatı, Avropa Birliyi, Ərəb Dövlətləri Liqası, İslam Əməkdaşlıq Təşkilatı, Amerika Dövlətləri Təşkilatı, Afrika İttifaqı və s. kimi dövlətüstü qurumların beynəlxalq terrorizmlə mübarizədə qazandıqları təcrübələrin əhəmiyyəti çox böyükdür. Fərqli regionlarda baş vermələrinə baxmayaraq beynəlxalq terrorizmə qarşı mübarizə bütün dövlətlərin maraqlarını nəzərə alan ümumi strategiyanın işlənib hazırlanmasını tələb edir.

Dünyanın ABŞ-da baş vermiş 11 sentyabr 2001-ci il terror hadisələrindən sonra terrorçuluqla mübarizəyə yanaşması ciddi dəyişikliklərə məruz qalsa da, dövlətlərin terrorla mübarizə siyasətində ilk əsaslı dəyişikliklər keçən əsrin 60-cı illərinin əvvəllərində hava gəmilərində baş vermiş terror aktları ilə əlaqədardır. Məhz bunun nəticəsində BMT 1963-cü il sentyabrın 14-də "Hava gəmilərində törədilmiş cinayətlər və bu növ əməllər haqqında" Tokio Konvensiyasını qəbul etmişdi, baxmayaraq ki, sənəddə təyyarələrdə baş vermiş cinayət əməlləri terrorçuluq kimi səciyyələndirilmir, lakin hava gəmilərinin kapitanlarına geniş səlahiyyətlər verilirdi (2). 60-cı illərin sonlarında Almaniyanı bürüyən solçu tələbə etirazları, Fransada, Yunanıstanda və İtaliyada baş verən çaxnaşmalarda terror aktlarına əl atılması ictimai fikirdə bu təhlükəyə qarşı ciddi mübarizə aparılmasını tələb edən çağırışlara gətirib çıxardı. Məhz buna görə də 70-ci illərdə Avropa hökumətləri artan terror hadisələrinin qarşısını almaq üçün bir sıra yeni qanunvericilik aktları qəbul etdi və tətbiqinə başlandı. Belə hüquqi aktlar 80-ci illərdə praktikada öz səmərəsini verdi və hətta müəyyən dəyişiklik və təkmilləşdirmələrə məruz qaldı. Təsadüfi deyil ki, nəticədə 11 sentyabr hücumlarından sonra təhlükə qavrayışındakı dəyişikliklər yeni siyasi və hüquqi mexanizmlərin bərqərar olmasına gətirib çıxarmaqla indiki şəklini almışdır.

Minilliyin əvvəllərindən etibarən beynəlxalq terrorçuluğun geosiyasi maraqlara xidmət etməsi özünü açıq şəkildə göstərməyə başladı. "Soyuq müharibə" başa çatdıqdan sonra ABŞ-nin dünya siyasətində hegemonluğu, RF-in 2004-cü ildən etibarən itirilmiş beynəlxalq mövqelərini bərpa etməyə başlaması, Çin və Hindistanın dünya siyasət meydanında mövqelərini möhkəmləndirmək uğrunda mübarizəsi, Türkiyə Prezidenti R.T.Ərdoğanın dəfələrlə "dünya beşdən böyükdür" fikrini səsləndirməsi, İsrail dövlətinin BMT TŞ-nin çağırışlarına məhəl qoymaması, Yaponiyanın, Pakistanın, Səudiyyə Ərəbistanının, Kanadanın, İranın və s. dövlətlərin BMT TŞ-də yer almaq cəhdləri qısamüddətli təkqütblülüyün ömrünü başa vurmasını, ABŞ-ın İraq və Əfqanıstandakı uğursuzluqları isə hərbi gücə arxalanan hegemonluq erasının bitməkdə olduğundan xəbər verirdi.

Təsadüfi deyildir ki, Yaxın Şərqdəki xaos burada hegemonluğa çalışan bütün dövlətlərin maraqlarına toxunurdu. Keçmiş ABŞ Prezidenti D.Tramp Yaxın Şərqdəki uğursuzluqlardan çıxış edərək burada vəziyyətin tədricən ABŞ-nin nəzarətindən çıxmaqda olması anonsunu vermişdi(14). Bu regionun həmişə beynəlxalq və regional güclərin maraqlarında olması onun coğrafi mövqeyi, beynəlxalq kommunikasiya-

ların üzərində yerləşməsi və zəngin karbohidrogen ehtiyyatlarına malik olması ilə bağlı idi. Məhz buna görə də Yaxın Şərqin başı həmişə bəlalı olmuş, onun sərvətlərini əldə etmək və saxlamaq uğrunda müxtəlif formalarda təzahür edən mübarizə və müharibələr heç zaman səngiməmiş, beynəlxalq terrorizmə qarşı mübarizə də məhz buradan başlamışdı. Tarixinə və coğrafiyasına nəzər salsaq, II Dünya müharibəsindən sonra beynəlxalq leksikona daxil olan "islam terroru" anlayışı da Qərb diplomat və tədqiqatçılarının dilindən bu regionla əlaqədar səslənmişdi. D.Tramp hələ prezidentliyi dövründə (2017-2020) ABŞ-nin Yaxın Şərqdə böyük iqtisadi itkilərə, 4-5 trln dollar zərərə, lakin bunun müqabilində kiçik nəticələrə nail olunduğunu dilə gətirmiş, bu regionda yaranmış vəziyyəti "total xaos" kimi səciyyələndirərək məcburiyyət üzündən bu regionun tərk edilməli olduğunu etiraf etmişdi(6). Onun Yaxın Şərq münaqişəsinin nizamlanmasına dair planını - "Əsrin müqaviləsi"ni Fələstin rəhbəri M.Abbasa sui-qəsd və təxribat adlandırmış, İran isə bu planı region və dünya üçün fəlakət kimi xarakterizə etmişdi (12).

Dünyanın müxtəlif regionlarında, o cümlədən də Yaxın Şərqdə gedən geosiyasi mübarizədə böyük siyasi, iqtisadi və hərbi gücə malik ABŞ öndə gedirdi. Onun beynəlxalq islam terrorizminə qarşı mübarizə adı altında hələ keçən əsrin sonlarından etibarən Yaxın Şərqdə apardığı mübarizədə terror aktlarından istifadə özünü müxtəlif formalarda büruzə vermişdi. ABŞ Yaxın Şərqdə terror təşkilatlarının yaradılması və hərtərəfli dəstəklənməsində mühüm rol oynayan başlıca dövlətlərdən biri idi. ABŞ və Avropa dövlətlərinin bir tərəfdən müsəlman ölkələrini, digər tərəfdən onlara qənim kəsilən İzraili dəstəkləməsi və yeri gəldikcə sosial münaqişələri qızışdırmaqla ərəb dövlətlərini terrorçuluqda ittiham etməsi Qərb diplomatiyasının ikiüzlülüyünün pərdələnməyən təzahürü idi. Qərbin Yaxın Şərqdə münaqişələri yaratmaq və dərinləşdirməkdə böyük təcrübəsi var idi, ilk növbədə demokratiyanın və insan haqlarının pozulmasının şişirdilməsi ilə sosial-iqtisadi situasiyanın böhran həddinə çatdırılması sınaqlardan dəfələrlə çıxarılmış üsul idi ki, "ərəb baharı" hadisələrində təkrar aprobasiyadan çıxarılmışdı. Rusiyalı müəlliflərdən V.Ustinov sosial münaqişələrin terrorizmin yaranması və inkişaf etməsi ilə bağlı təbiətini müəyyənləşdirərkən, xüsusən də İslamın müxtəlif şərhlərinə əsaslanan terrorizmin və ya tez-tez adlandırıldığı kimi, İslam terrorizmi-nin mahiyyətini qiymətləndirərkən dini amil üzərində daha ətraflı dayanmağı məqsədəuyğun hesab edir və göstərirdi ki, bu İslam cəmiyyətlərindəki ictimai-siyasi proseslərin əsas determinantıdır (15, s.337).

"Ərəb baharı"nın uğursuzluğu, ABŞ-nin Əfqanıstan və İraqdan çəkilməsi bu regionda situasiyanı dəyişdi. Rusiya və Çin ABŞ-nin Yaxın Şərqdəki qətiyyətsizliyindən məharətlə istifadə etdilər: onların Tehranla münasibətləri davamlı olaraq möhkəmlənməyə, bütövlükdə Yaxın Şərqə təsirləri güclənməyə başladı. Rusiyalı müəlliflərdən D.Suslov qeyd edirdi ki, bu regionda Pekin və Moskvanın rolunun nəzərə alınması vacibdir, həmin ölkələr hər iki tərəfin maraqlarını qorumaq üçün konkret modellər, platformalar və formatlar təklif edirlər ki, bu da onlara beynəlxalq arenada böyük xallar qazandırır. ABŞ adminstrasiyasının, xüsusilə C.Baydenin prezidentliyi dövründə qarşılaşdığı başlıca problemlərdən biri də məhz Vaşinqtonun bu regiondakı əvvəlki mövqelərinin itirilməsi ilə bağlı idi. C.Baydenə görə, Türkiyə və İran da daxil olmaqla bu region pulun və hakimiyyətin mənbəyi kimi beynəlxalq oyunçular arasında nüfuzu müəyyənləşdirir. Buna görə də Trampın siyasəti, baxmayaraq ki, sadə amerikalıların həyat şəraitinin yüksəldilməsinə xidmət edirdi, Ağ evə çoxlu problemlər gətirmişdir və onları həll etmək Baydenin üzərinə düşürdü (11).

Yaxın Şərqdə beynəlxalq terrorizmlə mübarizənin gedişində geosiyasi vəziyyətin bir sıra problemlərinin tarixi və beynəlxalq hüquqi aspektlərinin araşdırıldığını nəzərə alaraq biz əsasən "ərəb baharı" hadisələri ərəfəsi problemlərin təhlilinə diqqət yetirəcəyik. SSRİ-nin bu regionda nüfuzunun nə qədər güclü olduğu və terrorizmi dəstəkləyən başlıca dövlətlərdən biri olması mübahisəsizdir. Lakin 1991-ci ilin sonlarında SSRİ dağıldıqdan sonra Yaxın Şərqin terror təşkilatları içərisində əksəriyyət təşkil edən, əhatəli və güclü infrastruktura malik olan sol yönümlü terrorçu təşkilatlar sosializm sisteminin dağılmasının başlıca səbəbkarı kimi ABŞ-a qarşı intensiv olaraq həyata keçirdikləri terror aktları ilə Qərb imperializminə zərbələr endirmişdilər. Yaxın Şərqdə, habelə dünyanın digər bölgələrində fəaliyyət göstərən xüsusilə etnik yönümlü terror təşkilatları ABŞ və Avropa dövlətlərini islam dünyasına qarşı ikiüzlü siyasət yeritməkdə ittiham edərək milli-azadlıq hərəkatlarının yüksəlməsinə də təkan vermişdilər. Təsadüfi deyildi ki, xüsusilə minilliklərin qovşaqında milli-azadlıq hərəkatları və beynəlxalq terrorizm qarışmışdı. Yaranmış vəziyyət ABŞ-a əvvəlcə "Səhrada tufan" əməliyyatı adı altında Yaxın Şərq regionuna girməyə imkan verdi, əsrin sonunda isə diplomatlar regionda demokratiyanı bərqərar etmək məqsədilə ABŞ Döv-

lət Departamenti tərəfindən yaradılmış "Böyük Orta Şərq layihəsi" haqqında (layihənin ilk adı Yeni Yaxın Şərq idi) bəyanat və anonslar verməyə başlamışdılar.

Qeyd etdiyimiz kimi, beynəlxalq terrorizmə qarşı mübarizənin başlıca mərhələsi ABŞ-da 2001-ci il 11 sentyabr hadisələri ilə bağlı idi. Sentyabrın 11-də Nyu-York və Vaşinqtonda baş vermiş hadisələr həm terrorla mübarizənin, həm də ABŞ-nin son onilliklər tarixinin dönüş məqamı kimi xarakterizə olunur. Terror hadisələri ölkənin xarici siyasət strategiyasında əsaslı dəyişikliklərə səbəb olmuş, təhlükəsizlik konsepsiyası və "Buş doktrinası" adını almış yeni xarici siyasət doktrinası qəbul edilmişdi. Bu doktrina ABŞ xarici siyasətində son yarım əsrlik dövrdə mühüm yer tutan iki müddəadan - çəkindirmə və kontinent diplomatiyasından imtina edilməsi demək idi. Bu müddəaları əvəz edən “Buş doktrinası”nda Yaxın Şərqə demokratiyanın daşınması və insan haqlarının müdafiəsi yer alır, ABŞ-nin birtərəfli və preventiv fəaliyyətə üstünlük verəcəyi, habelə hərbi – texniki sahədə ölkənin beynəlxalq aləmdə mütləq üstünlüyünün təmin olunmasının vacibliyi bildirilirdi.

ABŞ prezidenti C.Buş (kiçik) terror hadisələrindən sonra bəyanatla çıxış edərək bildirmişdi ki, “biz özümüzü müdafiə etmək üçün terrorçuların hücum etməsini gözləyə bilmərik. Təhlükənin qarşısını almaq üçün biz ilk olaraq fəaliyyətə keçməliyik. Terrora qarşı mübarizədə cavab verməzdən əvvəl düşmənin hücumunu gözləmək səhv və məsuliyyətsizlikdir, düşməni qabaqlamaq və zərbəni ilk olaraq endirmək lazımdır". Sonralar diplomatik dairələrdə və siyasi tədqiqatlarda “Buş doktrinası” adını almış bu çıxışa əsasən həyata keçirilən anti-terror əməliyyatları heç də hər yerdə uğur qazanmadı, əksinə, beynəlxalq terrorizmə qarşı mübarizə SSRİ-nin dağılmasından sonra vaxtı ilə onun nüfuz dairələrinə aid edilən regionların ələ keçirilməsi uğrunda gedən geosiyasi mübarizəyə çevrildi (5, s.58-59).

ABŞ-nin geosiyasi maraqlarını əks etdirən anti-terror siyasəti aşağıdakı prinsiplərə əsaslanırdı:

- terrorçularla heç vaxt və heç bir danışıqlara getməmək və onların şərtlərini qəbul etməmək;
- törətdikləri terror cinayətlərinə görə terrorçuların məhkəmə qarşısına çıxarılması və cəzalandırılması;
- terrorizmi maliyyələşdirən dövlətlərə təzyiq göstərərək onları təcrid etmək və onların terrorla mübarizədə iştirakına nail olmaq;
- ABŞ-la əməkdaşlıq edən dövlətlərin antiterrorizm siyasətini dəstəkləmək və onlara hərtərəfli yardım etmək. Göründüyü kimi, ABŞ-nin anti-terror siyasəti geosiyasi məqsədlərə xidmət edirdi və bir növ dövlətlərin hegemonun ətrafında birləşməsi ilə bağlı əmr xarakteri daşıyırdı. Bu bir zamanlar məşhur olan "kim bizimlə deyilsə, bizim əleyhimizədir" devizini xatırladırdı.

Təsadüfi deyildi ki, ABŞ Dövlət Departamenti hələ keçən əsrin 70-ci illərinin sonlarından etibarən terrorçuluğu dəstəkləyən dövlətlərin və təşkilatların siyahılarını tərtib etməyə başlamışdı ki, tədricən bu siyahılara müasir dünyanın 7 dövlətini, yəni Suriya, İran, İraq, Liviya, Sudan, Şimali Koreya və Kubanın adları daxil edilmişdi, bunlardan 5-i Yaxın Şərq dövlətləri idilər. Beynəlxalq terrorizmə dəstək verməkdə və onu maliyyələşdirməkdə ittiham edilən bu dövlətlərin adları Dövlət Departamentinin hazırladığı “Terrorizmə kömək edən dövlətlər” adlı siyahıya salınmış və bu dövlətlərə qarşı hegemon tərəfindən bir sıra iqtisadi, siyasi, diplomatik xarakterli sanksiyalar tətbiq edilmişdi. Tədqiqatçılara görə, hazırda dünyada gizli və ya açıq şəkildə dəstəklənən 500-dək terrorçu təşkilat fəaliyyət göstərməkdədir (13, s. 362-363), halbuki 11 sentyabr terror aktından sonra ABŞ-nin açıqladığı siyahıda 104 təşkilatın adı qeyd edilmişdi. Məsələ burasında idi ki, ABŞ Dövlət Departamentinin tərtib etdiyi siyahılara adları salınan dövlətlər və terrorçu təşkilatlar birbaşa ABŞ-nin millı təhlükəsizliyinə təhlükə təşkil edənlər idi, halbuki dövlət terrorizmi siyasəti yeridən Ermənistan, habelə Qərbin dəstəklədiyi terrorçu təşkilatların adlarına bu siyahılarda rast gəlinmir. Türkiyə, Rusiya və milli KİV-lərdə, habelə sosial şəbəkələrdə ABŞ-ın terrorçuluğa belə birtətrəfli münasibəti kəskin tənqid və ittiham obyekti olaraq qalmaqdadır, belə mövqeyə bir sıra Qərb informasiya vasitələrində də rast gəlinir.

ABŞ-nin Əfqanıstan və İraqda istəklərini reallaşdıra bilməməsi, "Ərəb baharı" adı altında həyata keçirdiyi strategiyanın uğursuzluğu, birbaşa ABŞ-nin müdaxiləsi nəticəsində 2-3 aylıq hadisələrin gedişində 5 ərəb ölkəsində siyasi rejimləri dəyişməyə nail olmasına baxmayaraq Suriyadakı uğursuzluğu ABŞ-nin regional və beynəlxalq nüfuzuna və hegemonluq siyasətinə ağır zərbə oldu. Bütün bunlar ona gətirib çıxardı ki, “Buş doktrinası” izlənilən nəticələri vermədi. Digər tərəfdən, hazırda nə Liviyada, nə Əfqanıstanda, nə də İraqda sabitliyi bərqərar etmək mümkün olmamışdır. Amerika qoşunlarının Əfqanıstanı tərk etməsi və İraqdan çıxarılmaga başlanması (hazırda ABŞ-nin İraqda 50 minə yaxın hərbi kontingenti mövcuddur və onların buranı tərk edəcəkləri vaxt müəyyənləşdirilməkdədir) onun bu-

radakı mövqelərini Rusiya, Türkiyə və İrana tərk etməsi deməkdir. Artıq bir sıra beynəlxalq informasiya kanalları ABŞ qoşunlarının İraqdan çıxarılmasından sonra bu ölkədə vəziyyətin daha da gərginləşəcəyini proqnozlaşdırırlar. ABŞ və Rusiyanın hərbi müdaxiləsindən sonra region ölkələri arasında düşmənçilik və ziddiyyətlər o dərəcədə kəskinləşmişdir ki, ümumi anti-terror siyasəti və taktikasından söhbət belə gedə bilməz.

Beynəlxalq terrorizmlə mübarizə adı altında geosiyasi maraqlarını pərdələyən ABŞ hökumətinin 1950-1953-cü illərdə Şimali Koreyaya, minilliyin sonlarında Əfqanıstan və İraqa qarşı anti-terror koalisiyasına 30-a yaxın, hazırda Ukraynanı müdafiə adı altında onu bölüşdürmək uğrunda RF-ə qarşı müharibə aparan koalisiyaya 50-dən çox dövlət qoşulmuşdu ki, bunların hamısı ABŞ-nin hegemon rolunun qorunmasına xidmət edirdi. Müqayisə üçün deyək ki, İraqa qarşı 2003-cü ilin yaz hərbi əməliyyatlarına 150 mlrd doll. pul xərclənmişdi ki, bunun 90 mlrd doll. anti-terror koalisiyası üzvlərinin payına düşürdü, halbuki İraq neftinin xeyrini ABŞ-nin görməsinə dair külli miqdarda faktlar mövcuddur, Yaxın Şərqi özünün həyati maraqlar zonasına aid edən də ABŞ-dır. Geosiyasi məqsədlərini reallaşdırmaq üçün iqtisadi sanksiyalar siyasətindən məharətlə istifadə edən ABŞ-ın bu sahədə əhəmiyyətli sənədlərindən ilkini 1977-ci ildə qəbul olunmuş “Beynəlxalq fövqəladə iqtisadi güc Aktı”dır ki, İranda 1978-1979-cu illər inqilabından sonra ilk növbədə İrana və İraqa qarşı geniş şəkildə istifadə edilmişdir. Yaxın Şərqdə vəziyyətin gərginləşməsi ilə əlaqədar silah alverinin genişlənməsi ABŞ hakimiyyətini 1989-cu ildə “Anti-terrorizm və silahların ixracı haqqında əlavə Akt”, habelə “İxraca nəzarət Aktı” haqqında siyasi və iqtisadi xarakterli sənədlər qəbul etməyə vadar etdi. Sanksiyalar siyasətinin növbəti siyasi-hüquqi sənədləri 1984-cü ildə qəbul edilmiş “Geniş əhatəli cinayətlərə nəzarət Aktı”, 1986-cı ildə qəbul edilmiş “Çoxşaxəli diplomatik təhlükəsizlik və antiterror Aktı” kimi sənədlər olmuşdu ki, bunlar ABŞ-nin anti-terrorizm siyasətində mühüm əhəmiyyət kəsb edirlər. ABŞ-nin NATO bloku üzrə avropalı müttəfiqlərinin qanunvericiliyində də belə tipli sənədlərə rast gəlmək mümkündür. Halbuki 1970-1980-ci illərdə BMT TŞ-nin daimi üzvləri arasında problemə yekdil münasibətin olmaması üzv dövlətlər tərəfindən fərqli hüquqi-siyasi sənədlərin qəbul edilməsinə gətirib çıxarmışdı.

Digər tərəfdən, BMT TŞ-nin bütün daimi üzvləri fərqli adlarla başqa dövlətlərin daxili işlərinə siyasi və hərbi mənalarda müdaxilə etmiş, yəni hazırkı terminologiya ilə desək, dövlət terrorizmi siyasəti həyata keçirmişlər. Belə ki, SSRİ, ABŞ, İngiltərə, Fransa və Çin öz maraqlarından çıxış etməklə "soyuq müharibə" dövründə hərbi müdaxilə siyasətindən dəfələrlə istifadə etmişdilər. Terrorizmə qarşı mübarizəni əsas götürən ABŞ hökuməti 1980-cı ilin aprelində İranda əsir saxlanılan Amerika diplomatları hərbi yolla azad etmək üçün uğursuz "Mavi şimşək" əməliyyatını həyata keçirmişdi. Almaniyada ABŞ vətəndaşlarının öldürülməsindən sonra ABŞ hadisədə Liviyanı təqsirləndirərək 1982-ci ildə bu ölkənin hərbi obyektlərinə bir neçə dəfə hava zərbələri endirmişdi. ABŞ-nin 1999-cu ildə isə Sudanda kimyəvi silah istehsal etməsi güman edilən bir zavodu bombalaması sonradan məlum olduğu kimi, əsassız olmuş, lakin hərbi hücum nəticəsində dinc vətəndaşlar həlak olmuşdular. ABŞ hərbi hava qüvvələrinin 1999-cu ildə Əfqanıstanda Əl-Qaidənin bir sıra dayaq məntəqələrinə hava zərbələri də anti-terror siyasəti adı altında həyata keçirilmişdi. Ümumiyyətlə, toplanmış faktiki materiallara əsasən deyə bilərik ki, 1997-2010-cu illər arasındakı dövrdə dünyanın müxtəlif nöqtələrində anti-terror əməliyyatları adı altında müxtəlif hərbi əməliyyatlar həyata keçirilsə də, əsas hədəf Yaxın Şərq ölkələri olmuş, İslam terrorçularına qarşı mübarizə adı altında beynəlxalq münasibətlərin başlıca aktorları geosiyasi ambisiyalarını reallaşdırmaq, neft, qızıl və nüfuz dairəsi əldə etmək uğrunda mübarizə aparmışlar. Fərqli geosiyasi maraq və məqsədlər isə beynəlxalq və regional aktorlara nəinki anti-terror sisteminin yaradılmasına, hətta beynəlxalq terrorizmə qarşı sistemli və məqsədyönlü şəkildə çoxşaxəli mübarizənin aparılmasına imkan verməmişdir. Fikrimizcə, xüsusilə, Qərb-Şərq qarşıdurmasında təzahür edən Rusiya-Ukrayna müharibəsi terrorçuluqla mübarizədə həm sistemli, həm də anti-terror sisteminin yaradılması istiqamətində birgə mübarizəni uzun illər üçün gündəmdən çıxarmışdır, görünür, dünya bunun fəsadlarını hələ çox yaşayacaqdır.

Rusiya-Ukrayna müharibəsi və Yaxın Şərqdə cərəyan etməkdə olan hadisələr dünyanın soyuq müharibənin Karib böhranı kimi böhranlı dövrlərinə qayıdışının əyani göstəricisidir. Müasir dünya reallıqlarına ABŞ-ın və Rusiyanın xarici siyasət konsepsiyalarındakı fərqli münasibət ortaq məxrəcə gəlməyin nə dərəcədə çətin olduğunu səciyyələndirməyə imkan verir. ABŞ-nin Milli Təhlükəsizlik Strategiyası Rusiyanı başlıca rəqib kimi hədəfləyərək ona qarşı mübarizəni fürsət kimi bəyan edirdi: “Tarix təhlükə-

nin gəldiyini görüb fəaliyyət göstərməkdə uğursuzluğa düçar olanları sərt şəkildə mühakimə edəcəkdir, daxil olduğumuz yeni dünyada sülh və təhlükəsizliyə gedən yol fəaliyyət yoludur"(17, s.20). Təsadüfi deyildi ki, bu ABŞ-nin öz müttəfiqlərinə Rusiyaya qarşı birləşmək çağırışı idi, dünya siyasətində hegemonluğun saxlanması bu yolda olan bütün maneələrin aradan qaldırılmasını tələb edirdi ki, bu mənada Qərbin anti-Rusiya siyasəti anti-terror siyasəti anlamına gəlir və ABŞ-nin Milli Təhlükəsizlik Strategiyasında "bu yeni təhlükənin həqiqi təbiətini anlamaq üçün onilliklər lazım gəldiyi bildirilirdi. Şər dövlətlərin və terrorçuların məqsədlərindən asılı olaraq, ABŞ keçmişdə olduğu kimi, reaksiyaya etibar edə bilməz. Potensial hücumçunun aradan qaldırılmasında bacarıqsızlıq, bugünki hədənin təxirəsalınmazlığı və düşmənlər tərəfindən törədilən potensial hədənin həcmi bu seçimə imkan vermir. Biz düşmənlərimizə ilk olaraq hücum etməyə imkan verə bilmərik. Soyuq müharibə dövründə, xüsusilə Kuba böhranının ardınca biz yeni düşmənçilik vəziyyəti ilə üzləşdik. O zaman qorxutma səmərəli müdafiə idi. Lakin cavab zərbəsi təhlükəsinə əsaslanan qorxutma risk etməyə meyilli olan şər dövlətlərin liderlərinə qarşı işləmir. Terroru dəstəkləyən və KQS əldə etməyə çalışan dövlətlər bizi fəaliyyətə təhrik edirlər"(17, s.9). Göründüyü kimi, şər dövləti adı altında ilk növbədə Rusiya və Çin, habelə terrorizmi dəstəkləyən dövlətlər və onlara qarşı mübarizə üsulları nəzərdə tutulurdu. Strateji sənədlərin politoloji təhlilinə əsasən ABŞ-nin və Rusiyanın təhlükəsizlik konsepsiyalarında fərqli məqam ondan ibarət idi ki, ABŞ-nin strategiya sənədində hegemonluğun təmin edilməsi yer almışdısa, RF-in xarici siyasət konsepsiyasında daha çox kompromis və çoxqütblülüyün etiraf olunması əks edilmişdi.

Rusiya Federasiyasının Prezidenti V.Putin tərəfindən 2023-cü il martın 31-də təsdiq edilmiş Xarici siyasət Konsepsiyasında (bu say etibarı ilə Rusiyanın 6-cı xarici siyasət Konsepsiyası idi) Rusiyanın beynəlxalq vəziyyəti və xarici siyasət prioritetləri konkret olaraq müəyyənləşdirilmişdi. Konsepsiyanın 13-cü maddəsində Rusiyanın və Qərbin məqsədləri aşağıdakı kimi müəyyənləşdirilmişdi: Rusiyanın müasir dünyanın mühüm inkişaf mərkəzlərindən biri kimi güclənməsini, onun müstəqil xarici siyasətini Qərbin hegemonluğu üçün təhlükə hesab edən ABŞ və onun satellitləri RF-i özünü müdafiəsi üçün Ukrayna istiqamətində həyati maraqlarını müdafiə etmək məqsədi ilə həyata keçirdiyi tədbirlərdən uzunmüddətli anti-Rusiya siyasətini gücləndirmək üçün bəhanə kimi istifadə edərək ona qarşı yeni növ hibrid müharibəyə başladılar. Konsepsiyada Qərbin bu kursunun Rusiya Federasiyasının seçimi olmadığı göstərilir və qeyd edilirdi ki, Rusiya özünü Qərbin düşməni hesab etmir, ondan təcrid olunmur, Qərbə qarşı düşmənçilik niyyəti yoxdur və gözləyir ki, gələcəkdə Qərb dövlətləri öz hegemonluq ambisiyalarının mənasızlığını dərk edəcək, çoxqütblü dünyanın mürəkkəb reallıqlarını nəzərə alacaq və suveren bərabərlik, habelə bir-birinin maraqlarına hörmət prinsiplərini rəhbər tutaraq Rusiya ilə praqmatik qarşılıqlı fəaliyyətə qayıdacaqlar (8).

Konsepsiyanın "Yaxın xaric" bölməsində, 49-cu maddədə Rusiyanın nüfuz dairəsinə daxil olan istiqamətlər kimi postsovet məkanı göstərilirdi. Sənəddə deyilirdi ki, MDB-yə üzv dövlətlər və digər qonşu dövlətlər Rusiya ilə çoxəsrlik birgə dövlətçilik ənənələri, müxtəlif sahələrdə dərin qarşılıqlı asılılıq, ortaq dil və oxşar mədəniyyətlərlə bağlı olduğu üçün Rusiyanın təhlükəsizliyi, sabitliyi, ərazi bütövlüyü və sosial-iqtisadi inkişafı, dünya inkişafının və sivilizasiyasının nüfuzlu suveren mərkəzlərindən biri kimi mövqeyinin möhkəmləndirilməsi davamlı uzunmüddətli mehriban qonşuluq münasibətlərinin təmin edilməsini zəruri edir və onların müxtəlif sahələrdə potensialı birləşdirilməlidir. Diplomatik dilə çevrildikdə bu Rusiyanın geosiyasi sərhədlərinin hüdudlarını göstərmək idi ki, Rusiya-Ukrayna müharibəsi bunu aydın şəkildə göstərir. Təsadüfi deyildi ki, Rusiyanın bu yeni xarici siyasət sənədi Qərb dövlətləri, xüsusilə ABŞ tərəfindən olduqca kəskin qarşılanmış və Rusiya "geosiyasi ekspansiyada" ittiham olunmuşdu. Fikrimizcə, ABŞ-ı Rusiyanın yeni Konsepsiyasında narahat edən başlıca məqam sənəddə çoxqütblülüyün yer alması, Çin, Hindistan və Latın Amerikası ölkələrinin Rusiyaya dost ölkələr, ABŞ-ın isə "bəşəriyyətə qarşı riskin mənbəyi" kimi göstərilməsində idi.

Konvensiyanın 62-ci maddəsində Rusiyanın ABŞ siyasətinin konkret xarakteristikası verilirdi. Belə ki, Rusiyanın ABŞ siyasəti bu dövlətin dünya inkişafının nüfuzlu suveren mərkəzlərindən biri və eyni zamanda, Rusiyaya qarşı təcavüzkar siyasətinin əsas ilhamvericisi, təşkilatçısı və icraçısı kimi rolu nəzərə alınmaqla müəyyənləşdirilir, kollektiv Qərb Rusiya Federasiyasının təhlükəsizliyi, beynəlxalq sülh, bəşəriyyətin balanslaşdırılmış, ədalətli və mütərəqqi inkişafı üçün əsas təhlükələrin mənbəyi kimi səciyyələndirilirdi (8).

Minilliyin əvvəllərindən etibarən Qərb-Şərq qarşıdurmasının "qırmızı xətti" təkcə Yaxın Şərqdən keçmirdi, Aİ və NATO-nun genişlənməsiindən

sonra belə qarşıdurmaların meydanlarına tədricən Avropa və Asiya-Sakit okean regionları da çevrilməyə başlamışdılar. Əsrin sonlarından etibarən, xüsusilə BMT-nin dünya siyasətinə təsirinin azaldığı dövrdən etibarən ABŞ-nin öz iradəsini bütün dövlətlərə qəbul etdirməyə başlaması zəif şəkildə olsa da Rusiyanın müqaviməti ilə üzləşirdi. İlk belə epizodlardan biri kimi Rusiyanın baş naziri Y.Primakovun ABŞ-a 1999-cu il səfərini göstərmək olar. Belə ki, ABŞ-a növbəti işgüzar səfərə gedən Baş nazir təyyarədə olarkən NATO hərbi aviasiyasının BMT-nin sanksiyası olmadan Yuqoslaviyanı bombalamaq xəbərini aldıqdan sonra onu Vaşinqtona aparan təyyarənin kapitanına Moskvaya qayıtmaq əmrini vermiş və təyyarə Atlantik okeanının üzərində dövrə vuraraq geri qayıtmışdı ki, bu hadisə ikitərəfli münasibətlərdə böyük qalmaqal yaratmışdı (10). Məhz bu dövrdən etibarən dünya siyasətinin müxtəlif problemlərinə münasibətdə fikir ayrılıqları yer almağa başlamışdı. Yalnız ABŞ-da 11 sentyabr hadisələri qısa müddətə olsa da bu narazılıqları arxa plana keçirmiş, hətta Rusiya anti-terror koalisiyasına qoşularaq Bişkekdə Vaşinqtona hərbi baza yaratmağa icazə vermişdi.

Bununla belə, 2004-2005-ci illərdə iki ölkə arasında fikir ayrılıqları tezliklə ziddiyyətlərə çevrilmiş, ABŞ-nin Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrində "narıncı inqilablar" taktikasını yeritməyə çalışması Rusiyanın kəskin müqaviməti ilə üzləşmişdi. Məlum olduğu kimi, ABŞ yalnız Əfqanıstanda anti-terror əməliyyatlarının aparılması üçün BMT-nin sanksiyasını almış, sonrakı anti-terror fəaliyyətini burada qarşılaşdığı müqavimət üzündən "güc siyasətdir" formulu əsasında BMT-nin sanksiyalarını almadan həyata keçirmiş, son nəticədə isə bir növ BMT-ni "özəlləşdirmişdi". İraqda 2003-cü il, Gürcüstanda 2008-ci il hadisələri Rusiyanın artıq real gücə çevrilməkdə olduğunu göstərirdi. Rusiyalı analitiklər qeyd edirdilər ki, Krımın Rusiyanın tərkibinə qatılmasından sonra daha da kəskinləşən Rusiya-Qərb geosiyasi ziddiyyətləri Ukrayna məsələsi üzündən açıq qarşıdurma xarakteri aldı. Rusiyanın Kiyevə qarşı Xüsusi Hərbi Əməliyyatlara (XHƏ) başlaması Qərbin Kiyevi hərtərəfli dəstəkləməsinə, onun müasir silahlarla təchiz edilməsinə gətirib çıxardı. Qərb dövlətlərinin Ukraynaya böyük maliyyə yardımları münaqişəni yeni səviyyəyə yüksəltdi. Rusiya nəinki Qərbin həll etmək niyyətində olmadığı, əksinə qızışdırdığı Donbas münaqişəsində iştirak etdi, həm də öz suverenliyini və müstəqil siyasət həyata keçirmək hüququnu müdafiə etmək zərurəti ilə üzləşdi (7). Göründüyü kimi, geosiyasi maraqların toqquşması nəinki birgə anti-terror siyasətinin həyata keçirilməsini mümkünsüz etdi, habelə bir qədər əvvəl beynəlxalq terrorizmlə mübarizədə müttəfiqlik edən dövlətlər iki fərqli barrikadalar formalaşdırmağa başladılar, müxtəlif informasiya kanalları "Üçüncü dünya müharibəsi" ehtimalı mövzusunu gündəmə gətirdilər.

"Soyuq müharibə" başa çatdıqdan sonra yaşanmış qısa tarixi dövr ərzində dünya siyasətində geosiyasi maraqları reallaşdırmaq və hegemonluq uğrunda gedən mübarizə Avropanın kiçik istisna ilə ABŞ-ın maraqlarına tabe edilməsinə gətirib çıxardı. Lakin eyni fikri Yaxın Şərq və Asiya-Sakit okean regionu haqqında demək mümkün deyildir. Çünki Asiya-Sakit okean regionunun başlıca güc mərkəzi olan Çinlə gedən ticarət müharibəsində ABŞ öz üstünlüyünü təmin edə bilməmişdir. Yaxın Şərqdə isə Rusiya, Türkiyə və İranın artan müqaviməti, habelə müttəfiq saydığı ərəb dövlətlərinin etibarsızlığı ABŞ-a istədiklərini tam şəkildə reallaşdırmağa imkan vermədi. 2003-cü ilin mart-may ayları arasındakı əməliyyatlarda hərbi uğur qazanan ABŞ-nin qazandığı "işğalçı" imici onun heç də beynəlxalq terrorizmlə mübarizə aparmadığını, əksinə geosiyasi maraqlarını və bütünlüklə ərəb neftinə sahiblənməyə çalışdığını göstərirdi (4).

Böyük kapitala və iqtisadi imkanlara malik ərəb dövlətlərini ram etmək məqsədi ilə ABŞ-nin bu regionda həyata keçirdiyi strateji xətt süni xarakter daşıyan 2008-2011-ci illər dünya iqtisadi böhranına gətirib çıxardı (9). "İpoteka krediti" adını almış və ABŞ-da başlamış bu böhranın səbəbləri ilə bağlı bu günədək vahid rəy yoxdur, bu onu göstərir ki, böhranın baş verməsində ABŞ dövlət orqanlarının iştirakı olmuş və informasiyalar bilərəkdən dolaşdırılmışdı. Amma böhranın nəticələri Yaxın Şərq ölkələri üçün kifayət qədər ağrılı olmuş, əhalinin vəziyyətinin ağırlaşması, ərzaq məhsullarının bahalaşması ərəb ictimaiyyətinin radikallaşmasına gətirib çıxarmışdı ki, ABŞ-ın arzusunda olduğu məqam da məhz bu idi (3).

Yaranmış vəziyyətdə Qərbin inhisarında olan KİV-lər radikallaşmanın səbəbləri kimi ərəb ölkələrində hakimiyyətdə olan oturuşmuş rejimləri korrupsiyada, rüşvətxorluqda, terrorçuluğu dəstəkləməkdə, demokratiyanın olmamasında ittiham etməyə başladılar ki, bununla da dünya iqtisadi böhranı ərəb ölkələrində "ərəb baharı" hadisələrinə gətirib çıxardı. Nəticədə Tunisdə, Liviyada, Misirdə, Yəməndə hakimiyyət dəyişiklikləri baş verdi, bunlarla yanaşı, bir sıra ərəb ölkələrində də siyasi

rejimlərin Amerikayönümlü rejimlərlə əvəz edilməsinə gətirib çıxardı (16, s.6). Bununla belə, müasir Qərb və Şərq politoloji fikri "Böyük Orta Şərq layihəsi" kimi, "ərəb baharı" layihəsini də uğursuz və qarşısına qoyduğu məqsədlərə çatmayan layihələr kimi səciyyələndirməkdədir.

Dünya siyasətində geosiyasi qarşıdurmaların mühüm nöqtələrindən biri kimi Rusiya-Ukrayna müharibəsi bir sıra gizlinlərinə baxmayaraq beynəlxalq terrorizmə qarşı mübarizənin əhəmiyyətini fikrimizcə sıfırladı, çünki qarşıduran barrikadaların hər ikisi dövlət terrorizmi siyasəti yeridirdi. Bunu Rusiyanın yeni müdafiə naziri A.Belousovun layihəsindən də aydın şəkildə müşahidə etmək olar. Həmin layihəyə görə, Ukrayna müharibəsində uğur qazanmaq üçün vacib olan amillərin sırasına qoşunların ən müasir, ilk növbədə, yüksək dəqiqlikli silahlarla təmin olunması, həmçinin döyüş əməliyyatlarının yeni taktiki üsullarla (o cümlədən pilotsuz uçuş aparatları və robotlarla) aparılması, qabaqcıl texnoloji bazadan, o cümlədən süni intellektdən istifadə etməklə səmərəli idarəetmə sisteminin yaradılması və hərbi kadrların, əsasən komandirlərin hazırlığının daim təkmilləşdirilməsi daxildir (1). Bu amillərin anti-terror fəaliyyətində istifadə olunması ilə bağlı əlavə şərh verməyə ehtiyac yoxdur. Beynəlxalq terrorizmlə mübarizənin dövlət terrorizmi vasitəsi ilə aparılması - hibrid müharibə isə fikrimizcə, dünyanın idarəçiliyinin terrorçuların əlinə verilməsi deməkdir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Belousov: Qərbə müharibədə qalib gəlməyin 4 şərti.../ https://axar.az/news/planet /888359.html*

*2. Hava gəmisində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında Konvensiya/https://e-qanun.az/framework/2605*

*3. Американская мечта, погубившая мир/https://blog.bcs.ru/amerikanskaya-mechta-pogubivshaya-mir-vspominaem-krizis-2008-goda*

*4. Ближневосточный конфликт в интересах России. Независимая газета, 2015, 26 ноября*

*5. Брагин М. В.Путин-Дж.Буш, Сыграть в одну и ту же игру. Международная жизнь., Moskva, 2007, №7-8, с. 58-59*

*6. Дональд Трамп и Ближний Восток: выпутатся невозможно?/ https://www.bbc. com/russian/features-38466708*

*7. Жильцов С. Россия расставила приоритеты во внешней политике. Журн. Международная жизнь / https://interaffairs.ru/news/show/39727*

*8. Концепция внешней политики Российской Федерации/https://www.mid.ru/ru/ foreign_ policy/official_documents/1860586/*

*9. Кто и как создавал экономический кризис 2008 года/https://ren.tv/blog/iurii-gorodnenko/939203-kto-i-kak-sozdaval-ekonomicheski-i-krizis-2008-goda*

*10. Миссия государства-цивилизации - передел мирового порядка/https://novayagazeta.ru/articles /2023/04/07/missiia-gosudarstva-tsivilizatsii-peredel-mirovogo-poriadka*

*11. «Наступает время испытаний» Трамп уступил России в битве за Ближний Восток. Как Байден намерен исправить его ошибки?/https://lenta.ru/articles/2021/04/27 /no_s_ mechom/*

*12. План США по ближневосточному урегулированию/https://ru.wikipedia.org/ wiki/%D0%9F%D 0%B B%D0%B0%D0%BD_%D 0%A1%D0%A8% D0%90_%D0%BF%D0%BE_%D0%B1%D0%BB%D0%B8%D0%B6%D0%BD%D0%B5%D0%B2%D0%BE%D1%81%D1%82%D0%BE%D1%87%D0%BD*

*13. Севдималиев Р.М. Международный терроризм и политико-правовые проблемы борьбы с ним. Б.: İNDİGO, 2011, 504 с. 362-363*

*14. Трамп заявил, что ситуация на и Ближнем Востоку вышла из под контроля США/ https://www. rbc.ru/politics /18/12/2023/657f6e1e9a79476e23f2615e*

*15. Устинов В.В. Международный опыт борьбы с терроризмом. Стандарты и практика. М.: Юурлит-информ, 2002, с. 337*

*16. Эль Мюрид. Если завтра война. "Арабская весна" и Россия. М.: 2013, 240 с. 6*

*17. The National Security Strategy of the United States, p.3-20*



### Xülasə

Müasir dünya nizamına təhdidlərin içərisində yer alan və qlobal təhlükəyə çevrilən beynəlxalq terrorizmin qaynaqları çoxçeşidlidir. Lakin onun mühüm təzahür formalarından olan dövlət terrorizmi bilavasitə geosiyasi maraqların və ambisiyaların reallaşmasına xidmət edir. Yalta-Potsdam sisteminin mövcud olduğu dövrdə dünya geosiyasi nüfuz dairələrinə bölünmüşdü və yaranmış tarazlıq müxtəlif üsullarla davam etdirilirdi. Bipolyar sistemin sona çatması nəticəsində ABŞ-ın hegemon dünya gücünə çevrilməsi və öz iradəsini beynəlxalq hüququn bütün subyektlərinə qəbul etdirməyə çalışması dünya

siyasətinə yeni fəsadlar gətirdi. Dünya siyasət meydanına Çinin, Hindistanın, Türkiyənin, İranın, Səudiyyə Ərəbistanının və s. dövlətlərin simasında yeni aktorlar peyda olmağa başladılar. Rusiya isə SSRİ-nin dağılması nəticəsində itirdiklərini geri qaytarmaq uğrunda ABŞ-la qarşıdurmaya getdi. Geosiyasi maraqların toqquşması nəticəsində beynəlxalq terrorizm yeni xüsusiyyətlər əxz etməyə başladı. Beynəlxalq aktorlar beynəlxalq terrorçuluqla mübarizəni beynəlxalq terrordan geosiyasi maraqlarını reallaşdırmaq üçün istifadə etməyə başladılar. Məqalədə beynəlxalq terrorizmə qarşı mübarizənin məzmun və mahiyyətcə dəyişməsinin dünya siyasətinə geosiyasi təsirləri araşdırılır və dəyərləndirilir.

**Açar sözlər:** *beynəlxalq terrorizm, dünya siyasəti, geosiyasi maraqlar, hegemonluq, qarşıdurma, yeni aktorlar, dövlət terrorizmi, hibrid müharibə, strategiya, konsepsiya.*

**Ахмедзаде И.Ф**

**Международный терроризм - как феномен, возникающий в результате конфликта геополитических интересов**

**Резюме**

Источники международного терроризма, который входит в число угроз современному мировому порядку и превратился в глобальную угрозу, разнообразны. Однако государственный терроризм, являющийся одним из его важных проявлений, напрямую служит реализации геополитических интересов и амбиций. За время существования Ялтинско-Потсдамской системы мир был разделен на геополитические сферы влияния, и возникший баланс поддерживался различными способами. На мировой политической арене стали появляться новые игроки в лице государств Китая, Индии, Турции, Ирана и Саудовской Аравии и т.д. Россия же пошла на конфликт с США, чтобы вернуть то, что она потеряла в результате распада СССР. В результате столкновения геополитических интересов международный терроризм стал приобретать новые черты. Международные акторы начали использовать борьбу с международным терроризмом для реализации своих геополитических интересов.

В статье рассматривается и оценивается геополитическое влияние изменения содержания и сущности борьбы с международным терроризмом на мировую политику.

Ключевые слова: международный терроризм, мировая политика, геополитические интересы, гегемония, конфликт, новые акторы, государственный терроризм, гибридная война, стратегия, концепция.

**Ahmedzade I.F**

**International terrorism - as a phenomenon arising from a conflict of geopolitical interests**

**SUMMARY**

The sources of international terrorism, which is one of the threats to the modern world order and has become a global threat, are diverse. However, state terrorism, which is one of its important manifestations, directly serves the implementation of geopolitical interests and ambitions. During the existence of the Yalta-Potsdam system, the world was divided into geopolitical spheres of influence, and the resulting balance was maintained in various ways. New players began to appear on the world political arena in the form of China, India, Turkey, Iran, Saudi Arabia, etc. Russia went into conflict with the United States to regain what it lost as a result of the collapse of the USSR. As a result of the clash of geopolitical interests, international terrorism began to acquire new features. International actors began to use the fight against international terrorism to implement their geopolitical interests.

The article examines and evaluates the geopolitical impact of changes in the content and essence of the fight against international terrorism on world politics.

**Keywords:** *international terrorism, world politics, geopolitical interests, hegemony, conflict, new actors, state terrorism, hybrid war, strategy, concept.*